## 2. Fərabi əbu Nəsr Məhəmməd ibn Məhəmməd
(870-950 Dəməşq, Suriya)



Orta Asiyada Türk qəbiləsindən olan hərbi xidmətçi ailəsində doğulmuşdur. Bağdadda təhsil almış, fəlsəfi biliklərə, məntiqə dərindən yiyələnmiş, Antik elmi öyrənmişdir. Yunan alimləri Aristotelin, Platonun əsərlərini tədqiq etmişdir. Heç təsadüfi deyildir ki, şərqdə orta əsrlərdə Fərabi Aristoteldən sonra «ikinci müəllim» adını almışdır.

«Fəlsəfəni öyrənməzdən qabaq nəyin müqəddimə verilməsi haqqında», «Xoşbəxtliyin əldə edilməsi haqqında», «Elmlərin siyahıya alınması», «Fəzilətli şəhər əhlinin baxışları», «Əql sözünün mənasına dair», «İki filosofun-ilahi Ploton və Aristotelin baxışlarında ümumilik», «Metafizik kitablarda Aristotelin məqsədi» və digər əsərləri İbn Sina, Bəhmənyar, Nizami, Səfiyyədin Ürməvi, Tusi və sair ensiklopedik biliyə malik şəxslərin ideya qaynağı olmuşdur.

Fərabi «elmlərin siyahıya alınması» traktatında dövrünün bilik sahələrini beş bölgüyə ayırır: 1) Dilçilik; 2) məntiq; 3) riyaziyyat (hesab, həndəsə, optika, ulduzlar, mexanika); 4) fizika və metafizika; 5) İdarəetmə haqqında elm (hüquqşünaslıq və kəlam).

Onun fikrincə bütün mövcudat vahid başlanğıcdan meydana çıxmışdır. Yek nəticə müqəddəs əqldir. (İlahidir) Ondan sonrakı əql, göy və göyün nəfsi meydana gəlir. Bu qayda ilə fəal əqlə qədər davam etmişdir. Fərabiyə görə Ay səması altında olan hər şey dörd ünsürdür (su, od torpaq, hava). Onlardan minerallar, bitkilər, heyvanlar nəhayət insan təşəkkül tapıb. Fərabinin fəlsəfəsində ilk səbəb zəruri varlıq adlandırılır. Cisim maddə və formanın vəhdətidir. Bunlardan biri olmasa, o biri də olmaz.(!) Şeylərin zahiri cəhətləri hisslər vasitəsilə qavranılır. Mahiyyətin dərki isə yalnız əqlin sayəsində mümkündür.

Fərabi məntiqi elmi də tədqiqat metodu kimi qiymətləndirir. Ona görə məntiq əqli kamilləşdirən, idrakda insanı düzgün yola, həqiqətə yönəldən, onu yanılmaqdan qoruyan, səhvə yol verib-vermədiyini yoxlayan qaydalar məcmusunu öyrədir.

Əxlaq məsələlərini insanın zehni keyfiyyəti, onun ağıllılığı ilə əlaqələndirir. Duyğu və təfəkkürü nəfsin xassələrindən sayırdı. O bununla da insanın psixoloji xüsusiyyətini təhlil edirdi. Fərabi «Musiqi haqqında böyük kitab» əsərində musiqini nəzəri və əməli hissələrə bölmüş və tədqiq etmişdir. Melodiyaların daxili düzülüşünü, qanunauyğunluqlarını hesablamışdır. Şərq musiqisinin ritmik əsasını dəlillərlə şərh etmişdir. Məşhur musiqiçi, bəstəkar, yeni musiqi alətləri ixtiraçısı olmuşdur.

1975-ci ildə Fərabinin 1100 illik yubileyi dünya səviyyəsində qeyd edildi.

Əsərləri Alma-Atada çap olunmuşdur.

Türk dünyasının yetirdiyi möhtəşəm dahilərindən biri olan Fərabi Əbu Nəsr Məhəmməd ibn Məhəmmədin həyatından bəhs edən Türkiyədə Mirac Sərhəndli tərəfindən 1985-ci ildə nəşr olunmuş «Bioqrafiya 17» silsilə yazısından «Fərabi» adlı 120 səhifəlik kitabın əsas yerlərini qəsa bir şəkildə sizlərə çatdırmaqla tarixin 1000 ildən artıq bir kəsimində bizdən əvvəl yaşamış bu şəxsiyyətin mənəvi dünyası, örnək ola biləcək həyat tərzinin hər kəsdə maraq doğuracağına ümid edirəm (müəllifdən)/

... İslamın siyasi qüdrət mərkəzindən olan Bağdadda miladi doqquzuncu yüzillikdə Abbasi xəlifəliyinin nüfuzu zəifləmişdi. Bu dövrdə artıq Türklər yeni aləmin siyasi və əskəri həyatında olduğu kimi elm və mədəniyyət həyatında da öz fikir ulduzları ilə parlayırdı.

Bunun da nəticşsi olaraq ata-analar öz uşaqlarına yeni bir gözlə baxır, hər kəs öz övladını böyük elm adamı kimi görmək istəyirdi. Həmin dövrdə təkcə iri şəhərlərdə deyil, kəndlərdə də, qəsəbələrdə də elmə böyük maraq var idi.

Bu vaxt, Fərab şəhərinin yaxınlığında yerləşən Visec adlı qəsəbədə hərbi rəis vəzifəsində çalışan Turxan oğlu Məhəmmədin ailəsində 874-cü ilin payız axşamı bir oğulu dünyaya gəldi. İslam dininə böyük bağlılığı olan türk hərbiçisi Məhəmməd oğluna da peyğəmbərlərimizin şərəfinə Məhəmməd adını verdi.



Hələ iki yaşına çatan Məhəmməd öz ətrafındakıları və atasını qəribə suallarla çətinliyə salırdı. «Allah nədir», «Yox nədir» və s.

Təhsilə qəsəbə məktəbində beş yaşında ikən başlayan balaca Məhəmməd artıq doqquz yaşına çatdıqda qəsəbədə dərs deyən mollalarla eyni səviyyədə biliyə malik idi.

Onu Fəraba göndərməli oldular. Fərabın ən iri mədrəsəsinə gətirilən doqquz yaşlı Məhəmmədin müəllimi mədrəsənin baş xocasına yazırdı: «...Sizi əmin edirəm ki, yetmiş illik ömrümdə belə zəkalı uşağa rast gəlməmişəm.»

Onu imtahan edən müəllimlər, bu zəkalı uşağı özündən yaşca böyük tələbələrin arasına qatırlar. Yenə də tələbə yoldaşlarının bilik səviyyəsi ondan aşağı idi. Burada tənhalıq hiss edən Məhəmməd yalnız baş müəllimlə söhbət zamanı anlanıldığını hiss edirdi. Tənhalıqdan sıxılırdı.

Yeniyetməlik dövrünə çatan Məhəmməd Fərabda da müəllimlərindən daha üstün biliyə malik olduğunu hiss edirdi. O, elm və mədəniyyət mərkəzi olan Bağdada getməyi qərara alır.

Burada dini təriqətlərin, şiə hərəkatlarının dində yeni dünyagörüşləri üzə çıxarması gənc Fərabidə ziddiyyətli fikirlər əmələ gətirir, onu islam dininin fəlsəfəsini yeni mənada dərk etməyə zövq edirdi. Lakin gənc Məhəmməd islam dininin fəlsəfi mahiyyətinə ehtiyatla yanaşır, tələsik nəticə çıxarmaqdan çəkinir.

Bu arada Fərabi yunan dilinə mükəmməl yiyələnməsi səbəbindən yunan alimləri Aristotel və Platonun (şərq aləmində Ərəstun və Əflatun kimi tanınan alimləri) orjinaldan öyrənmək imkanı əldə edir. Fərabiyə qədər bu alimlərin fəlsəfəsində təhrif edilmiş, düzgün tərcümə edilməmiş cəhətlər üzə çıxarılır. Fərabi hər iki alimin fəlsəfi dünyagörüşündə ümumi cəhətləri elmi cəhətdən əsaslandırır. Bu alimlərin dünyagörüşündə ilk baxışda sadə, əhəmiyyətsiz görünən cəhətlər gənc alimin əvvəlki çalışmalarından daha artıq bir zövq verirdi.

Fərabdan Buxaraya qayıdan Məhəmməd artıq Fərabi kimi qəbul edilir, lakin burada da özü ilə fikir birliyi olan din adamları ilə qarşılaşmayan gənc alim yenə də özünü tənha hiss edirdi. Özünə qapanan Fərabi təmiz əxlaqı, təvazökarlığı sayəsində ətrafındakılarda mənfi münasibətin yaranmasına şərait yaratmırdı.

İnsanlar onun üstün biliyini qəbul edir, ona hörmətlə yanaşırdılar. İnsanların arxasınca danışmaz, heç kəsin işinə qarışmazdı. Təklənəndə də təbiətin qoynuna çıxar, musiqi ilə öz tənhalığını oyudardı.

Yaxşı əl qabiliyyəti olan gənc Fərabi fəlsəfi düşüncələrə dalarkən müxtəlif oyuncaqlar, musiqi alətləri hazırlayır, musiqi sahəsində araşdırmalar aparır, musiqinin qanunlarını kəşf edirdi. O, uda öz əli ilə yeni forma vermiş, daha mükəmməl bir alət halına salmışdı. Bu alətdə özünün bəstələdiyi dəyərli musiqi nümunələrini bacarıqla ifa edirdi. Bununla belə Fərabi Buxaranın elm adamları, ağsaqqallarından, zəngin kitabxanalarından ciddi surətdə yararlanır, riyaziyyat elminin də incəliklərinə yiyələnməyə səy göstərirdi.

Fərabi hələ gənc yaşlarında Buxarada ikən ilk kiçik əsərlərini yazmağa başlamışdı, lakin onları hələlik üzə çıxarmırdı. O Bağdada, Bəlxə, Herata, Səmərqəndə səyahət edərək bu şəhərlərdə də elm adamları ilə görüşür, kitabxanalarda öz biliyini zənginləşdirirdi. Qısa bir zamanda fars dilini öyrənən Fərabi qədim yunan dilinin incəliklərinə yiyələnir, gəzdiyi şəhərlərin dilindəki şivələri də öyrənməyə çalışırdı. Dillərə marağı və bacarıqla yiyələnməsi, müxtəlif dillərdə olan mənbələrdən doğru və düzgün elmi məlumatlar almasına imkan yaradırdı.

Mənbələrdə mübaliğə ilə onun yetmiş dil bildiyindən bəhs edilir. Əslində Fərabi türk dili ilə yanaşı qədim və müasir yunan dilini, ərəb, fars dillərini və bu dillərin şivələrini öyrənirdi.

Dillərə mükəmməl yiyələnməsi sayəsində də Aristotel və Platonun fəlsəfi əsərlərinin ərəbcəyə tərcüməsində yol verilmiş qüsurları aradan qaldırmışdı. Öz əsərlərini yığcam və anlaşıqlı bir dildə yazmaqla kiçik həcmli kitablarında zəngin elmi bilikləri bacarıqla çatdırırdı.

Təsadüfi deyildir ki, onun əsərləri İbn Sina kimi bir dahinin zehni qidasına çevrilmişdir. İbn Sina öz dostuna yazırdı ki, mən Fərabini öyrənməyənədək Aristotel də Platonun fəlsəfi fikirlərinin mahiyyətini lazımınca aydınlaşdırmağa çətinlik çəkirdim. Fərabinin ölümündən 30 il sonra dünyaya gələn İbn Sina Fərabi ilə bir dövrdə yaşamadığına təəssüflənirdi.



Fərabinin üstünlüyü fizikadan musiqiyə, astronomiyadan atoma, məntiqdən fəlsəfəyə qədər çox müxtəlif sahələri əhatə edən əsərlərində orjinal elmi biliklərdə ilk söz deməsidir. Onun toxunduğu elə mövzular olmuşdur ki, Fərabidən sonrakı beş əsr müddətində bu mövzulara toxunan olmamışdır.

Fərabi gecə-gündüz çalışırdı, hətta Bağdadda olarkən gecələr küçə fənərlərinin işığında çalışmalı olurdu. Bununla bərabər vaxtaşırı Visicə qadını və uşaqlarının yanına gedir, bəzən ailəsinin yanında bir neçə ay qalmaqla zehni və fiziki cəhətdən istirahət edir, qüvvə toplayırdı. İstirahət anlarında musiqi ilə ciddi məşğul olan Fərabi kanon (qanun) musiqi alətini ixtira etdi.

Musiqi ilə ruhi dinclik tapan alim islam aləmində o dövrdə baş verməkdə olan siyasi calxantılardan uzaq durmağa çalışır, onun fəlsəfi dünyagörüşünə qarşı düşmən münasibətin formalaşa biləcəyindən ehtiyat edirdi.Lakin Fərabinin fəlsəfi dünyagörüşünü təhrif edə biləcək fitnəkarlar da yox deyildi.

Dostları onun dinə zidd düşüncə tərzi olduğu barədə hökmdarlara məlumat çatdırıla biləcəyini, bu fitnənin qarşısını almaq üçün özünün hökmdarın görüşünə getməsini ona məsləhət görürdülər.

Fərabi hökmdar Seyfüddövlənin görüşünə gəlir, lakin hökmdarlara xas olan qəbul qaydalarına əməl etmir. Bundan narazı qalaraq: «İndi Fərabidən bəzi şeylər soruşacağam. Cavab verməsə onu bayıra atarsınız» deyən hökmdara Fərabi belə cavab verir: «Bir işin sonunu gözləmədən, əvvəlcədən qərar verməyin». Məclisdəki alimlər Fərabiyə verilən sualların cavablarına heyran qalır, onun hər dediyi fikri acgözlüklə öz dəftərlərinə qeyd edirlər. Belə nağıl edirlər ki, Ərəb-Bizans müharibələrinin cəngavəri Seyfüddövlənin məclisində bir elm adamı kimi hünər göstərən Fərabi bir musiqiçi kimi sözlərinin, musiqisinin müəllifi olduğu parçaları özünün ixtira etdiyi qanununda (kanonda) çalıb oxumaqla əvvəl məclisdəkiləri güldürür, sonra ağladır, axırda isə yatırır. Bütün bunlar hökmdarda Fərabiyə qarşı rəğbət yaradır, əlbəttə bu rəvayətlər Fərabinin nə qədər dərin bir hörmət sahibi olduğundan, onun bir qəhrəman kimi əfsanələşdirilməsindən xəbər verir.

Fərabinin ölümü barədə də uydurmaya bənzər bir rəvayət meydana çıxmışdır. Yazılanlara görə Fərabi Şam şəhərindən o zaman Ağ dənizin limanlarından olan Askalana gedərkən yolda quldurlarla rastlaşır. Quldurlara özünün mal-qarasını və əşyalarını təslim etsə də kitablarının zəbt edilməsinə imkan verməmək üçün 70 yaşlı Fərabi quldurlarla qəhrəman kimi döyüşür. Nəticədə aldığı yaralardan vəfat edir. Bundan xəbər tutan Seyfüddövlə Fərabini dəfn etdikdən sonra quldurları tapıb onun məzarı üstündə edam etdirir.

Fərabiyə məxsus zehni və əxlaqi dəyərləri onun 160-a yaxın əsərində öz əksini tapmışdır. Təsadüfi deyildir ki, bu dahi filosofun əsərləri dəfələrlə Parisdə, Qahirədə, Londonda, Dehlidə, Almaniyada çap edilmiş, latın, fransız, İbrani, alman, hind və digər dillərə tərcümə edilmişdir.

Almaniyada Fərabi fəlsəfəsinə maraq daha böyük olmuşdur. Orta əsrlərdə fəlsəfi təfəkkürün formalaşmasında Fərabi irsi ciddi rol oynamışdır. Onun fəlsəfi, elmi əsərləri indi də əhəmiyyətini itirməmişdir və elmin inkişafında özünəməxsus əhəmiyyətə malikdir. Təəssüf ki, Fərabi irsi müasir türk dünyasında lazımınca öyrənilmir. Onun min ildən bəri qorunub saxlanmış əsərləri öyrənilməli, tədqiq və təbliğ edilməlidir.

Fərabi gözəl bir şair olmuşdur. Onun misralarının hərfi tərcüməsindən bəzi sətirləri diqqətinizə çatdırırıq:

*Dövrün tərs*
*Söhbətin yararsız*
....
*Hər başın*
*Bir başqa ağrı daşıdığını*
*Görüncə evimə qapanıb*
*Şərəf və heysiyyətimi qorudum.*
.....
*Yanımdan əskik olmayan*
*Ovucumda işıldayan*
*Hikmət şərabından içdim.*
*İçki yoldaşlarım*



*Mürəkkəb şüşələridir.*
*Musiqim isə*
*Onların çıxardığı səslər .*
*Eyni zamanda*
*İndi heç bir ölkədə*
*Mövcud olmayan*
*Hikmət elminin əsərlərindən*
*Meyvələr topladım.*

Ömrünün son illərində yazırdı:

*Qardaşım,*
*Faydasız və pis işlərdən çəkin,*
*Həqiqətləri qavramağa,*
*Ələ keçirməyə çalış.*
*Nə bu dünya bizim üçün*
*Bir əbədiyyət evidir,*
*Nə də insan dünyada yenilməz,*
......
*Kiçik bir ibarədən belə*
*Əhəmiyyətsiz şeylər üçün,*
*Bir-birimizlə rəqabət edər,*
*Hətta qısqanclığa düşərik.*
*Çoxlarının yox olması*
*Bizə niyə çatmır ki,...*

IX-XIII əсрләр Түрк дунјасында тәбиәт елмләри.- Бакы, 2004.- С. 21-27.